# Dövlət Sərhəd Xidməti Respublika Günü ilə bağlı silsilə tədbirlər keçirib






Dövlət Sərhəd Xidmətində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təntənəli tədbirlər keçirilib. Bütün hərbi hissə və bölmələrdə keçirilən mədəni-kütləvi tədbirlərdə, elmi-praktiki seminarlarda, görüşlərdə sərhədçi veteranlar, elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak etmişlər.

Bayram tədbirlərində XX əsrin əvvəllərində müsəlman Şərqində ilk demokratik respublikanın yaradılmasından, xalqımızın qədim dövlətçilik ənənələrinə, zəngin tarixə malik olmasından söz açılmış, ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri dərin minnətdarlıq hissi ilə vurğulanmışdır.

Müstəqillik dövründə dövlət bayrağımızın Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ilk dəfə 22 avqust 1992-ci il tarixdə Naxçıvan sərhəd dəstəsində, ümummilli lider Heydər Əliyevin iştirakı ilə qaldırılması Azərbaycan Sərhəd Mühafizəsi tarixinin ən şərəfli səhifələrindən biri olmaqla bərabər, hər bir sərhədçinin üzərinə əlavə məsuliyyət qoyur.

May ayının 27-də Gürcüstan, İran İslam Respublikası və Rusiya Federasiyası ilə dövlət sərhədində, həmçinin Xəzər dənizində sərhəd sularında ulu öndər Heydər Əliyevin 95 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş yürüşlər təşkil olunmuşdur.

Dövlət Sərhəd Xidmətinin ən nümunəvi hərbi qulluqçularının iştirak etdikləri sərhədçi yürüşlərinə quru sərhədlərində süvari dəstələr, sərhəd sularında isə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri cəlb olunmuşdu.

Yürüş iştirakçıları vətənə xidmətdən şərəf duyduqlarını, torpaqlarımızı işğaldan azad etməyə və bütün sərhədlərimiz boyu dövlət bayrağımızı yüksəltməyə hər an hazır olmalarını bildirmişlər.

* * *

Respublika Gününə həsr olunmuş silsilə tədbirlərin biri də mayın 27-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Kunq-fu Federasiyasının təşkilatçılığı ilə Kunq-fu idman növü üzrə respublika çempionatı keçirilmişdir. Çempionatın açılış mərasimində çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti və qayğısı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, möhtəşəm yarışları keçirmək bacarığını, qazanılan qələbələrin ölkəmizdə idmana və idmançılara göstərilən yüksək qayğının bariz nümunəsi olmasını xüsusi qeyd etmişlər.

26 komandanın iştirakı ilə keçirilən Kunq-fu üzrə ölkə birinciliyində "Sərhədçi" yığma komandası 18 idmançı ilə iştirak etmiş, maraqlı mübarizə şəraitində keçən yarışda 6 qızıl, 2 gümüş və 5 bürünc medal qazanaraq birinci yeri tutmuşlar.

İdmançılardan Əli Mirələkbərli, Əfqan Fətixanov, Şənlik Talıbov, Hüseyn Hüseynov, Lida Lətifova, Mustafa Hüseynov öz çəki dərəcələrində ən yüksək nəticə göstərmişlər. Yarışın sonunda qaliblər mükafatlandırılmışlar.

***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 30 may.- S.12.